# ŞAMOYEV FİRUDİN İSA OĞLU



1962-ci il fevralın 7-də Qazax rayonunda anadan olmuşdur. Orta təhsilini doğma rayonlarında almış, 1981-ci ildə hərbi xidmətə çağırılmışdır. 1983-cü ildə ordudan tərxis olunaraq Qazaxa qayıtmış, Təmir Tikinti İdarəsində çilingər işləməyə başlamışdır. F.Şamoyev 1991-ci il iyulun 8-də könüllülərdən ibarət dəstəyə yazılmışdır. Sonra "N" saylı hərbi hissədə minaatan bölüyün komandiri vəzifəsinə təyin olunmuşdur. Qazax rayonunun Bağanıs Ayrım, Məzəm, Quşçu Ayrım və digər kəndlərinin müdafiəsində iştirak etmiş, düşmənin atəş nöqtələrinin məhv edilməsində rəşadət göstərmişdir. 1992-ci il aprelin 13-də Quşçu Ayrım kəndi ətrafında gedən ağır döyüşdə F.Şamoyev qəhrəmancasına həlak olmuşdur. Qazax rayonundakı Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Şamoyev Firudin İsa oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qazax şəhərindəki 4 nömrəli tam orta məktəb və küçələrdən biri onun adını daşıyır. Həmçinin, xatirəsinə bulaq tikilmişdir.